AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

# «CÜMHURİYYƏT DÖVRÜ TÜRKİYƏ ƏDƏBİYYATI»

*fənninin*

# PROQRAMI

**(Magistrlik dərəcəsi üçün)**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 29.03.2009-cu il tarixli 348 saylı əmri ilə fənn proqramı kimi təsdiq edilmişdir.

BAKI – 2009

**1. Fənn haqqında ümumi məlumat**

Türk etnosu dünyanın qədim və qüdrətli etnoslarından biri kimi. Türkiyə türklərinin yaratdığı dövlətin qədimliyi və zəngin tarixi keçmişinin olması. Türk ədəbiyyatının tarixi inkişaf yolu: problemlər, meyllər, istiqamətlər. XIX türk ədəbiyyatının inkişafında yeni mərhələ kimi. XX əsr türk ədəbiyyatının özünəməxsusluqları.

Ədəbi-mədəni həyatda yeni cərəyanlar, təmayüllər. Dövrün tarixi mənzərəsi. Türkiyənin dünyanın siyasi xəritəsindən tamam silinməsinə göstərilən cəhdlər. Milli azadlıq hərəkatının güclənməsi və qələbə qazanması. Türkiyədə Cümhuriyyətin elan olunması. Sivil dövlətə xas siyasi, iqtisadi, mədəni və s. islahatların həyata keçirilməsi. Cümhuriyyət dövrü ədəbiyyatının səciyyəvi cəhətləri (həm ideya-məzmun, həm də sənətkarlıq) baxımından vətənpərvərlik hisslərinin güclənməsi.

**2. XX əsrin əvvəllərində türk ədəbiyyatında ənənə və novatorluq.**

XX əsrin əvvəllərində Türkiyədə mürəkkəb-ictimai siyasi hadisələr və onların ədəbiyyatın inkişafına təsiri. Qərbçilər, türkçülər, islamçılar, simvolistlər və s. kimi müxtəlif ədəbi məktəblərə mənsub yaradıcı ziyalıların söz sənətini inkişaf etdirmək naminə apardıqları axtarışlar.

Millilik hərəkatı və ədəbi proses. Onların qarşılıqlı əlaqələrinin güclü şəkildə inkişafı. O.Seyfəddin, M.Əmin, R.Xalid, A.Gündüz, Y.Kamil və b. Onların həyat və yaradıcılıqları. Əsərlərinin problematikası, sənətkarlıq məziyyətləri. Türk dünyası arasındakı birlik ideyasının poetik təbliği.

Türkçülük və avropalaşmaq. Türkçülük və islamçılıq. Z.Göyalpın türkçülük görüşləri. Türklərin dildə sadəlik uğrunda mübarizələri. O.Seyfəddin və bədii ədəbiyyatda, ictimai həyatda etnik-milli şüurun gücləndirilməsi. O.Seyfəddinin müharibə dövrü yaradıcılığı və onun əsərlərində vətənpərvərlik mövzusu.



**3. Demokratik dövlət quruculuğu və ədəbi prosesin inkişaf meylləri.**

Milli dövlət quruculuğu ideyası və bunun bədii ədəbiyyatda əksi. Dövlət quruculuğu problemi ilə əlaqədar tarixi ənənəyə münasibətdə müxtəlif mövqelərin qarşı-qarşıya gəlməsi. İslamçıların, o cümlədən M.A.Ərsoyun dövlət quruculuğunda islam faktorunun ön plana çəkməsi. M.A.Ərsoy «İstiqlal marşı» şairi kimi, onun əsərlərində dini dəyərlərə üstünlük verilməsi. Milli ideallların daha da gücləndirilməsi prosesində M.A.Ərsoyun poetik irsinin əhəmiyyəti.

T.Fikrətin həyat və yaradıcılığı. Yaradıcılığının son dövrünə aid nümunələrdə qəhrəmanlıq ideyalarının, döyüşkənlik ruhunun zəiflədilməsinə zəmin hazırlayan əsərlərin yaranması.

K.Tahirin, N.F.Qısakürəyin, R.N.Güntəkinin və b. milli dövlət quruculuğunda ictimai və bədii fəaliyyətləri. Əsərlərində bu ideyanın sənətkarlıqla tərənnümü.

**4. Cümhuriyyət dövrünün poeziyası.**

Cümhuriyyət dövrünün poeziyasının inkişaf meylləri. Yeni forma, məzmun axtarışları. Əli Əkrəm Bolayırın «Şiir Demeti»(1924) adlı kitabında dini, əxlaqi, milli, vətənpərvərlik kimi mövzuların ön plana çəkilməsi dövrün ədəbi gedişinin səciyyəvi göstəricisi kimi. Hüseyn Sirət Özsevərin (1872-1959) «Bağbozunun» (1928), «Kivilcimli kül» (1937), Süleyman Nazifin «Malta gecələri» (1921) adlı şeir kitablarının nümunəsində onların həyat və yaradıcılığı haqqında ətraflı məlumat.

Fazil Əhməd Ayqaç, Mehmed Behcət Yazir, Mehmed Emin Yurdaqulun milliyyətçi xarakterli, ruhlu poetik duyğu və düşüncələri. Əhməd Haşim, Yəhya Kamal, Yusif Ziya Ortac, Xalid Fəxri Ozansoy və başqaları haqqında ümumi məlumat. Ə.Haşim, Y.Kamal kimi yaradıcılığa daha əvvəllər başlamış sənətkarların əsərlərinin səciyyəvi cəhətləri.

N.Hikmət və sərbəst şeir ənənəsi. Onun milli azadlıq hərəkatında iştirakı, əsərlərində bu mövzuya, bu və ya digər

Kitab haqqında Z.O.Səbanın fikirləri. Azərbaycan dilinə tərcümə olunan «Çilə» şerləri toplusuna daxil olunan şeirlər («Axşam», «Mövsüm dönərkən», «Hörümçək toru», «Vida», «Koroğlu» «Qürbət» və b.)

N.F.Qısakürəyin nəsri və dramaturgiyası. Bu janrda yazılmış əsərlərində sufi motivlərin əksini tapması. Mətləbin bədii ifadəsində sənətkarın rəmzi vasitələrdən səmərəli istifadə. N.F.Qısakürək yaradıcılığının türk ədəbiyyat tarixnin inkişafına təsiri.

**9. Səbahəddin Əli. Həyat ıə yaradıcılığı.**

Sənətkarın həyatı, təhsili, yaradıcılığı, jurnalistlik fəaliyyəti haqqında ümumi məlumat.

Səbahəddin Əlinin əsərlərinin janr müxtəlifliyi, problem və mövzu rəngarəngliyi. Hekayələrində Anadolunun kənd və qəsəbə həyatından aldığı mövzuların realist təsviri. Kəndin və kəndlilərin acınacaqlı taleyinin ön planda əks etdirilməsi. «Dəyirman» (1935), «İki təkərli öküz arabası» (1936), «Səs» (1937), «Yeni dünya» (1943) və s. bu kimi hekayələrində sosial problemlərə xüsusi diqqət yetirilməsi

S.Əlinin romanları. Romanlarının ideya-məzmun xüsusiyyətləri, surətlər aləmi, sənətkarlıq məziyyətləri. «Kuyucaklı Yusuf» (1937), «Kürk mantolu Madonna» (1943), «İçimizdeki Şeytan» (1940) romanlarının səciyyəvi cəhətləri, dil-üslub xüsusiyyətləri. Sənətkarın süjet qurmaq və obraz yaratmaq məharəti.

**10.Xalidə Ədibin nəsri.**

Xalidə Ədibin həyatı, təhsili, ədəbi-bədii fəaliyyəti. Ədəbiyyata gəlişi və yaradıcılığının ilk illərində məhəbbət mövzusuna müraciət. «Sevie Talib» (1909), «Həndan» (1910) kimi romanlarında sevgi motivi aktual həyati problemlərin ifadəsi kimi.

Qərb mədəniyyətinin təsiri altında tərbiyə almış insanların baş qəhrəman kimi seçilməsi və onların daxili aləminin



realistcəsinə təsviri. «Yeni Turan» romanında türkçülük ideyalarının bədii təbliği. Yazıçının yaradıcılıq axtarışlarına Ziya Göyalrın təsiri.

«Ateşten gömlek» (1922) romanında azadlıq mücadiləsinin təsviri, əsərdəki Ayşə obrazı milli-azadlıq hərəkatının tərəfdarlarının və iştirakçılarının ümumiləşdirilmiş obrazı kimi.

Əsərlərinin ideya-məzmun baxımından təhlili, özünəməxsusluğu. «Kalb ağrısı» (1924) və onun davamı olan «Zeynonun oğlu» (1928) əsərləri haqqında məlumat. 30-cu illərdə yazıçının əsərlərində məişət mövzularına, etnoqrafik detallara, sadə insanların həyatına müraciəti. «Sinekli bakkal» (1936) «Tatarcık» (1939) romanlarının səciyyəvi cəhətləri haqqında məlumat.

**11. Nazim Hikmətin yaradıcılığı.**

Şairin həyatı, təhsili, yaradıcılığının ilk mərhələsi. Onun milli azadlıq hərakatında iştirakı. Anadoluda azadlıq mübarizlərinin sırasında fəaliyyət göstərməsi. N.Hikmət və Atatürk. Poeziyasında milli azadlıq motivləri. İnqilabi fəaliyyəti.

Rusiyaya səfəri, Kommunist partiyası sıralarına keçməsi, Türkiyəyə qayıdandan sonrakı taleyi. Poeziyasının mövzu və ideya baxımından təhlil edilməsi. N.Hikmətin poemaları, xüsusən də «İnsan mənzərələri» poeması haqqında ətraflı məlumat.

N.Hikmətin dramaturgiyası. Şairin dramatik axtarışlarının formalaşmasına rus mədəniyyət xadimlərinin, xüsusən Stanislavski məktəbinin əsaslı təsiri. «Qəribə adam», «Unudulmuş adam», «Kəllə», «Bayramın birinci günü» «Yusuf və Züleyxa», «Demoklisin qılıncı» pyesləri. Dramlarının məzmunu və ideya təhlili. Onun əsərlərinin dilimizə uyğunlaşdırılması, tədqiqi və təbliği.

N.Hikmətin nəsri. Əsərlərinin ideya-məzmun xüsusiyyətləri, bədii, tərbiyəvi və təbliğati əhəmiyyəti.

### Seminar məşğələlərinin mövzuları

1. Cümhuriyyət dövrünün poeziyası.
2. Cümhuriyyət dövrünün nəsri.
3. Cümhuriyyət dövrünün dramaturgiyası.
4. N.F.Qısakürəyin yaradıcılığı.
5. Xalidə Ədibin roman yaradıcılığı.
6. Nazim Hikmətin sərbəst şeir ənənəsi və Qəribçilər
7. Rəşad Nuri Güntəkinin yaradıcılığı.
8. Suad Dərvişin həyatı və yaradıcılığı.



### Fənnin tədrisinə ayrılan saatların mövzular üzrə paylanması

| № | Mövzular | Cəmi | Mühazirə | Seminar |
|---|---|---|---|---|
| 1. | Fənn haqqında ümumi məlumat | 2 | 2 | - |
| 2. | XX əsrin əvvəllərində türk ədəbiyyatında ənənə və novatorluq | 2 | 2 | - |
| 3. | Demokratik dövlət quruculuğu və ədəbi prosesin inkişaf meylləri | 2 | 2 | - |
| 4. | Cümhuriyyət dövrünün poeziyası | 4 | 2 | 2 |
| 5. | Cümhuriyyət dövrünün nəsri. | 4 | 2 | 2 |
| 6. | Cümhuriyyət dövrünün dramaturgiyası | 4 | 2 | 2 |
| 7. | Cümhuriyyət dövrü türk ədəbiyyatında ideya-məzmun xüsusiyyətləri | 2 | 2 | - |
| 8. | N.F. Qısakürəyin yaradıcılığı. | 4 | 2 | 2 |
| 9. | Səbahəddin Əli. Həyat və yaradıcılığı | 2 | 2 | - |
| 10. | Xalidə Ədibin nəsri | 4 | 2 | 2 |
| 11. | Nazim Hikmətin yaradıcılığı | 4 | 2 | 2 |
| 12. | Cümhuriyyət dövrünün ədəbi ənənələri və xələflər (qəribçilər) | 2 | 2 | - |
| 13. | Rəşad Nuri Güntəkin | 4 | 2 | 2 |
| 14. | Məhəmməd Əmin Yurdaqulun həyat və yaradıcılığı | 2 | 2 | - |
| 15. | Suad Dərviş Xədicə | 3 | 2 | 1 |
| | | 45 s. | 30 s. | 15 s. |

## Ədəbiyyat


1. Abdullah Tüylü. M.A.Ersoy. Bakı, 2005.
2. Abıyev A. Ö.Seyfəddin. Həyat və yaradıcılığı. Bakı, 1978.
3. Abıyev A. Türk ədəbiyyatında satira (XIX əsrin II yarısı – XX əsrin əvvəlləri). Bakı, 1991.
4. Abdulla Azər. Nazim Hikmətin pyesləri. Azərbaycan tarixində. Qobustan jur. 1979 №3.
5. Anar. Əsrin şairi. Nazim Hikmət – 100. Dirçəliş XX əsr. Aprel 2002. №50.
6. Atatürk və türkçülük. Bakı, 2006.
7. Fikrət T. Seçilmiş əsərləri. Bakı, 1969.
8. Göyalp Z. Türkçülüyün əsasları. Bakı, 1991.
9. Hüseynov R. N.Kamal. Bakı, 1990.
10. Hüseynov R. T.Fikrət. Bakı, 1990.
11. Xalid R. Qürbət hekayələri. Bakı, 2006.
12. Xəlilov P. Nəcəfova K. Türkiyə şeirindən seçmələr müntəxəbatı. Bakı, 2004.
13. Kamal Tahir. Dövlət ana. Bakı, 1982.
14. Kamal Tahir. Yorğun savaşçı. Bakı, 2001.
15. Qaray R.X. Məmləkət hekayələri. Bakı, 2006.
16. Quliyev E. Türkiyə türk ədəbiyyatı (XIX-XX əsrlər). Bakı, 2003.
17. Qumilov L. Qədim türklər. Bakı, 1993.
18. Min beş yüz ilin oğuz şeiri antologiyası. İki kitabda (tərtibatçı Anar). Birinci kitab. Bakı, 1999; ikinci kitab. Bakı, 2000.
19. Mehmet Akif Ərsoy. Safahat. İstanbul, 1993.
20. Məhəmməd Əmin Yurdaqul. Şeirləri
21. Məhəmməd Əmin Yurdaqul. Nəsr əsərləri. Türkün hüququ.
22. Namiq Kamal. Vətən yaxud Silistrə. İstanbul, 1969.
23. Namiq Kamal. Həyatı və şeirləri. İstanbul. 1995.
24. Namiq Kamal. Əsərləri III cilddə. İstanbul. 1957.





25. Nazim Hikmət. Seçilmiş əsərləri. II cilddə. I cild. Bakı, 1961; II cild, Bakı, 1963.
26. Nazim Hikmət. Günəşi içənlər türküsü. Bakı, 2002.
27. Nəcib Fazil Kısakürək. Çilə. Bakı, 2004.
28. Orxan Vəli. Bütün şeirləri. Bakı, 2005.
29. Rafiq Özdək. Türkün qızıl kitabı. 3 kitab. Bakı, 1992-1997.
30. Rəşad Nuri Güntəkin. Çalı quşu. Bakı, 1987.
31. Rəşad Nuri Güntəkin. Yapraq tökümü. Dəyirman. Bakı, 1994.
32. Rüstəmov Y. Türkiyə fikir tarixi haqqında mülahizələr. Bakı, 2005.
33. Suat Dərviş. Fosforlu Cevriyyə. Ankara məhbusu. Bakı, 1991.
34. Səbahəddin Əli. İçimizdəki şeytan. Bakı, 1987.
35. Yaşar Kamal. Yad qızı. Bakı, 1980.
36. Yaşar Kamal. İncə Məmməd. Bakı, 1992.
37. Xalidə Ədib. «Yeni Turan»
38. Xalidə Ədib. Kalb ağrısı.


### Rus dilində


1. Алькаева Л.О. Очерки по истории турецкой литературы. 1908-1939 г. Москва, 1959.
2. Горбузова В.С. Поэты Турции XIX века. Ленинград, 1970.
3. Меликли Т. Литература Турции: корни и крона. Москва, 1998.
4. Миллер А.Ф. Очерки новейшей истории Турции. Москва, 1948.
5. Фин Радий. Писатели Турции – книги и судьбы Москва, «Советский писатель», 1963.
6. Рустамов И. Некоторые проблемы социально – политической мысли Турции, Баку, 2005.

Çapa imzalanmışdır: 21.04.2009.
Kağız formatı 60x84 1/16. Sifariş №50
Həcmi 1,0 ç.v., Sayı 200.

«Bakı Universiteti» nəşriyyatı, Bakı ş.,
AZ 1148, Z.Xəlilov küçəsi, 23.